# Əbədiyaşarlar unudulmur

## Polad ömrü - gənc nəslə polad məktəbidir

Yaşadığımız hər gün bu gündür. Ancaq ötən hər saniyə bu günümüzü dünənləşdirir, dünənlərimizi keçmişləşdirir. Həyatda ən sürətli zamandır; zamanın ölçü vahidləridir. Elə buna görə də bu günümüzü elə yaşamalıyıq ki, saniyələr belə yaddaşlara xoş xatirə, mənalı tarix kimi yazılsın. Tarixi tarixləşdirən elə zamanın ölçü vahidləridir. Hər ötən anı elə yaşamalıyıq ki, keçmişdən "kaş ki..."lər bizi məzəmmət etməsin. Keçmişdən boylanan hər bir xatirə bizim ömrümüzə məna çaları versin. Ömür tariximizi gələcək nəsil üçün örnəyə çevirsin. Bax, bu zaman insan ömrü öz qiymətini qazanar, öz şəcərəsini tarixləşdirər.

Bu gün tarixi xronoloji cəhətdən göz önünə gətirsək, ən zəngin tarix 2020-ci ilin tarixi hadisələridir. Bu hadisələr içərisində acılar dolu faktlar varsa da, qürur dolu hadisələr də özünəməxsus yer tutmuşdur. Həmin ilin elə hadisələri vardır ki, yazılan tarixlərin tarixi baxımdan ən şanslısı, ən qiymətlisidir. Çünki vətən torpaqları şəhid cisimləri ilə bərkimişsə, qazi qanları ilə suvarılmışsa, daha güclü, qürurverici bir tarix yazılmışdır. Və bu tarix qan yaddaşımıza elə bir gün bəxş etmişdir ki, həmin gün 30 ilə yaxın bir müddət ərzində başımızı uca tutmağa sövq etmişdir. Alnımızın məğlub ölkə vətəndaşı titulunu yumuş, qürur dolu bir kəlam, Zəfər tarixli bir ölkənin övladları adı qazanmışıq.

Bu tarixi yaşadan insanlar əvvəlki tarixin köhnəlmiş xronologiyasını kölgədə qoymuşdur. ATƏT-in Minsk qrupunun verdiyi qərarlar, qətnamələr yalnız sənəd üzərində qaldığı üçün bu gün acıların hələ də yaşadığımız müharibəyə sürükləndik. Düşmən öz düşmən mövqeyində dayandı. Havadarlarına arxayınlaşaraq düşmən tərəf hər an atəşkəsi pozdu. Vandallıq, vəhşilik etdi, günahsız körpələrin, insanların qətlinə bais oldu, Qarabağ sərvətləri yağmalandı. Ancaq bütün bunlar tarixi sənədlərdə öz dövrü inikasını tapmadı. Və beləcə bəzi tarixlər bu günün hadisələri qarşısında kölgədə qaldı.

30 ilə yaxın bir müddət keçməsinə baxmayaraq 1992-1993- cü illərin acıları hələ də həm tarixə bir utanclıq bəxş edirdi, həm də öz vətənində vətənsizləşənlərin adında köçkün, qaçqın kəlmələri az qala "soyad" kimi səslənirdi. Erməni ünsürlərinin bu hərəkətləri vətənpərvər insanların nə gündüzünü, nə də gecələrini rahat buraxırdı. Dövlət başçısının sülh danışıqları ilə geri qaytarmaq istədiyi torpaqlarımız xarabalığa çevrilmişdi. Şəhid övladlarımızla bərabər Qarabağda evlər də "şəhid olurdu", qarabağlıların uşaqlıq, gənclik arzu-




ları, yaşlıların isə bir ömürlük xatirələri və bununla bərabər həyat salnaməsi də "şəhid" olurdu. Pərən-pərən düşmüş bir soydan olanlar yalnız imkan daxilində xeyir-şərdə görüşürdülər. Bir-birinə əziz olan insanlar yadlaşırdı illər ərzində. Çünki bir ailənin övladları bəzən ayrı-ayrı bölgələrdə yaşayır, çörəyini qazana bilmək üçün yollar, məkanlar axtarırdılar. Nə qədər gənc, nə qədər insan psixoloji zədələr almışdı; 4 illik müharibədə iştirak edənlər də, yurdunda yurdsuz yaşayanlar da. Bütün bu acılar müharibənin labüdlüyünü göstərirdi. Ali Baş Komandanın döyüş əmrini gözləyən vətənpərvər gənclər həmişə səfərbərlik həsrətində idi. Hərbi sahədə çalışanlar isə mənfur erməni ünsürlərinin hər həmləsini dəf edir, yolunu azan düşmən ordusunu yerindəcə susdururdu.

2016-cı ilin Aprel döyüşləri düşmən tərəfə açıq-aşkar dərs verdi; hər an döyüşə hazır və qələbə qazanmaq iqtidarını onlara əyani şəkildə göstərmişdilər.

2020-ci ilin İyul hadisələri də tarixdə çox böyük iz qoydu. Düşmən həmlələri layiqincə dəf olundu, ancaq xalqımızın bir qrup igid hərbçiləri; Polad Həşimov başda olmaqla 12 nəfər şəhid oldu. Polad Həşimov çox güclü və öz işində siyasətcil bir general idi. Onun şəhidliyi xalqı - ələlxüsus hərbi sahədə yaşayanları çaşdırmışdı. Heç kim onun ölümünə inanmırdı. Hamı onun hərbi işi mükəmməl bildiyini qeyd edir, erməni ünsürlərin onu öldürmək iqtidarında olmadığını danışırdılar. Bu ölümə müəmmalı ölüm donunu geyindirənlər də az deyildi. Ancaq səngər generalı elə səngərdə də vuruldu... Onun yanında olub vurulan hərbi personal da ordumuzun öndə olan hərbçiləri idi...

Poladın ölümü ilə təkcə hərbi işdə çalışanlar deyil, bütün xalq ayağa qalxdı. Generalların ölümsüzlüyünə inanan insanlar yalnız səngər generallarının ölümünə inancla onu son mənzilə yola saldılar. II Fəxri Xiyabanda dəfn olunan xalq qəhrəmanının ziyarətinə o qədər əhali gəlirdi ki, xiyabanın mühafizəçiləri ziyarətə gələnləri növbə ilə buraxırdılar. Bu xalq sevgisinin tərənnümü idi. Bu hər gün onların - onu sevənlərin yazdığı dastan idi, canlı film, həm də ürəklərdə, göz önlərində, yaddaşlarda nə qədər bədiiləşdirilsə də, tarixi sənədli film idi. Məzar önündə gənclərin hayqırtılı səslə "Nədən sən, Polad?!" və s. deyimləri, "Kaş ki, mən öləydim, komandir, sən bu xalqa çox lazım idin" - deyimləri ürəklərə sirayət edirdi.

Yadımdadır, Polad Həşimovun ad günündə onun ailəsi də burada idi. Anası ilə ziyarətə gələn bir gənci gördük. Səkidə oturub elə yanıqlı ağlayırdı ki... Anası onu kiridə bilmirdi. Şəhidimizin anasının məzar başından aralandığını görən gənc onun qarşısına keçib ayaqlarını qucaqladı. Ağlaya-ağlaya: - "Kaş mən öləydim, ana! Komandirimiz ölməz biri idi. Necə oldu ki, düşmən gülləsi onu tapdı. Onun taktikası güclü idi... Niyə komandirim, generalım, niyə? Niyə, ana"?! - deyərək, elə dizlərinə, yerə yumruqlar vururdu... Belə səhnələr çox oldu bu bir ildə... Elə Poladın ölümsüzlüyü də bu idi... Körpələrdən yaşlılara hər kəs onun, eləcə də onun silahdaşlarının ziyarətinə axın-axın gəlirdi və gəlir... Axı şüurlu surətdə hamı bilir ki, Vətən Müharibəsinin başlaması üçün ilk qığılcım Poladın şəhid olduğu yerdən başladı.

Vətən Müharibəsi 44 gün davam etdi. Ali Baş Komandan İlham Əliyevin güclü siyasəti və dəmir yumruğu ilə bu müharibə zəfərlə nəticələndi. Düşmən layiqli cavabını aldı, torpaqlarımız, demək olar ki, yağı tapdağından azad oldu. Axı bizim orduda məhz Polad əqidəli və ona bənzəmək istəyən əsgərlər döyüşürdü. Onların əksəriyyəti Polad məktəbinin "məzunları" idilər. Bax, elə buna görə də 44 gün ərzində qələbə qazanıldı. Hər kəs bütün çətinliklərə rəğmən yalnız Vətən uğrunda vuruşdu, silahla da, əlbəyaxa da! Polad kimi öz işinə, əməlinə, zəhmətinə təmənna ummadan. Məmməd Araz sanki illər öncə məhz Polad əqidəsini görübmüş kimi yazıb:

***Qol verdin boynunu qucaqlamağa,***
***Göyünə baxmağa göz verdin, bəsim...***
***Kürək söykəyənin ana torpağa***
***Haqqı yox ayrı bir təltif istəsin.***

***Heç bir mükafatın yetmədi mənə,***
***Bircə sağolun da bəsimdi, vətən.***
***Bəsimdir hər səhər təltif yerinə,***
***Qapımda küləyin əsibdi, vətən!***

Bu gün poladsevər gənclik, poladsevər yaşam tərzi gənc Poladlar yetişdirir. Onun məzarını, xatirə lövhələrini ziyarət edən körpələri, gəncləri gördükcə qəlbimin yanıqlı sızıltısına sanki buz kimi sərinlik gəlir. Poladsevərlər məhz Polada aid nə varsa and yerinə çevirmişlər.

Polad məktəbinin ilk fidanları da, pöhrələri də sabahkı Poladlardır. Onlar Vəndam qəsəbəsindəki bu xatirə guşəsini ziyarət etdikcə, II Fəxri Xiyabanda ölümündən sonra aldığı "Azərbaycanın Milli Qəhrəmanı" medalının da baş daşında əks olunduğu məzarını ziyarət edənlərə xitabən Polad sanki Məmməd Araz dili ilə deyir:

***Dünya böyük, ömür yolu bir addım...***
***Bir uçrumdan fırtınaya tor atdım…***
***İki çırpı bir ocaqda gün ağlar,***
***Od səngiyər, köz sızıldar, kül ağlar.***
***Yaş ötəndə yada düşər günahlar:***
***Kim yıxıldı, kim haqlayan olmadı,***
***Bir cürəti görən, duyan olmadı...***

**Gülnarə İSRAYILOVA,**
**şəhər 5 saylı məktəbin müəllimi.**

## Əbədiyyət üfüqünün doğan günəşi

Mən ona günəş deyirəm. Sübh tezdən günəş doğar, aləmi nura boyar. O nurla sənin ölümündən 2 ay sonra başlanan 44 günlük müharibədə Azərbaycan ordusu zəfər qazandı. Zəfərdə sənin də payın var. Generalım mənim, şəhidlər ölmür, onlar ölən günü yenidən doğulur. Onları sevənlərin ürəklərində yerlərini tuturlar. Görkəmli xalq şairimiz mərhum Bəxtiyar Vahabzadə şəhidlərimizi çox gözəl vəsf etmişdir:

***Zalım öyünməsin zülümləriylə,***
***Minbir böhtanıyla, minbir şəriylə,***
***Azadlıq uğrunda ölümləriylə,***
***Ölümü kamına çəkdi şəhidlər.***

Artıq bir ildir ki, cismən aramızda yoxsan, lakin ruhən hər kəsin qəlbinə çox yaxınsan. Tarixin qan yaddaşına salınmış, yaddaşlara köçmüsən. Yolunda canını verdiyin bu vətən torpağını öz adınla həmişə şərəfləndirəcəksən. Sənin vətən sevgin sənsiz qalan, cismən sənsizləşən ürəkləri yaşatmaq üçün həmişə döyünəcək, cənab general Polad Həşimov!

**Məlahət SEYİDOVA,**
**Qəbələ şəhəri.**

## Xatirə turniri

Rayon Gənclər və İdman İdarəsi gənclər arasında general Polad Həşimovun xatirəsinə həsr edilmiş mini-futbol üzrə xatirə turniri keçirmişdir. Turnir iştirakçıları ilk öncə General Polad Həşimovun və Azərbaycan torpaqlarının müdafiəsi uğrunda həlak olmuş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Daha sonra tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək, Azərbaycanın torpaqlarının müdafiəsi uğrunda şəhid olmuş general-mayor Polad Həşimovun keçdiyi döyüş yollarından danışmışdır. Həmçinin yarış iştirakçılarının nəzərinə çatdırıldı ki, şəhidlərimiz öz şücaətləri ilə xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Xatirə turnirinin sonunda Qəbələ şəhər 4 saylı tam orta məktəbin komandası I yerə, şəhər 1 saylı tam orta məktəbin komandası II yerə və şəhər həvəskarlar komandası III yerə layiq görülmüşlər.

Qaliblərə rayon gənclər və idman idarəsinin kubok və diplomları təqdim edilmişdir.

**Müşfiq ABBASOV,**
**Gənclər və İdman İdarəsinin rəis müavini.**

## Şeir müsabiqəsi

Qəbələ Rayon Gənclər və İdman İdarəsi və təhsil şöbəsinin təşkilatçılığı ilə təhsil şöbəsinin akt zalında general-mayor Polad Həşimovun xatirəsinə həsr edilmiş yeniyetmə və gənclər arasında "Şəhidlər unudulmur" mövzusunda şeir müsabiqəsi keçirilib. Müsabiqənin keçirilməsində məqsəd Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş Vətən müharibəsində şəhid olanların tarixə qəhrəmanlıq salnaməsi yazdıqlarını, onların xatirəsinin yaddaşlardan heç vaxt silinməyəcəyini və şəhidliyin müqəddəs bir zirvə olduğunu ictimaiyyətə çatdırmaq, həmçinin yeniyetmə və gənclərin bədii yaradıcılıq potensialının inkişaf etdirməkdən ibarətdir.

Müsabiqənin açılış mərasimində ilk öncə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov və təhsil şöbəsinin müdiri Arifə Bayramova tədbirin məqsəd və vəzifələri barədə çıxış edərək, general-mayor Polad Həşimovun keçdiyi şərəfli döyüş yolu barədə tədbir iştirakçılarına məlumat vermişlər.

Müsabiqədə rayonun müxtəlif məktəblərindən olan 20-dək şagird iştirak edib və torpaqlarımız uğrunda canlarından keçmiş şəhidlərimizə, milli qəhrəmanlarımıza və vətənpərvərlik mövzusuna həsr olunmuş şeirlər səsləndiriblər.

Müsabiqənin yekun nəticəsinə əsasən Qəbələ şəhər 3 saylı tam orta məktəbin şagirdi Məmmədova Zəhra Yaşar qızı I yerə, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin şagirdi Nurəddinli Nuray Vüsal qızı II yerə və Vəndam qəsəbə 3 saylı tam orta məktəbin şagirdi Baxışova Aişə Cavidan qızı III yerə layiq görülmüşdür.

Qaliblər Gənclər və İdman İdarəsinin və təhsil şöbəsinin diplom və xatirə hədiyyələri və ilə mükafatlandırılıblar.

**Mübariz AĞAYEV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**